# Mədəni irsə qaygı



**Sabirabad Rayon Mədəniyyət və Turizm Şöbəsi özündə 41 klub müəssisəsi, 79 kitabxana, Ü.Hacıbəyov adına uşaq musiqi məktəbi, Heydər Əliyev muzeyi və Tarix-diyarşünaslıq muzeyini birləşdirir və onların yaxından köməkliyi ilə əhaliyə mədəni xidmət göstərir.**

**Mədəni-maarif müəssisələrində maddi-texniki bazanın möhkəmləndirilməsi sahəsində bir sıra tədbirlər planı hazırlanıb həyata keçirilmiş, 12 kənd mədəniyyət evində və 7 kənd kitabxanasında əsaslı təmir və abadlıq işləri görülmüşdür.**

## Sabirabad

Sabirabad rayonunda mədəniyyət evi ölməz ümummilli liderimiz Heydər Əliyevin adını daşıyır. Sabirabadlılar ulu öndərə olan xalq qayğısını öz əməli işləri ilə sübut ediblər. Mədəniyyət evində əsaslı təmir və yenidənqurma işləri görülüb.

Sabirabadlılar tarixi hadisələr və bayramlar, habelə yubileylərlə bağlı bütün tədbirləri layiqincə qeyd etməyə çalışırlar.

20 yanvar şəhidlərinin ildönümü münasibətilə rayon mədəni-maarif müəssisələrinin yanvar ayında keçirilən seminar yığıncaqlarında şəhidlərə aid "Dua" adlı qısametrajlı sənədli film nümayiş etdirilmişdir.

26 fevral Xocalı soyqırımının ildönümü münasibətilə şəhərin mədəni-maarif müəssisələrində faciəni əks etdirən foto-stend və kitab sərgiləri təşkil edilmişdir.

Cavad kənd mədəniyyət evində "Müharibədən-müharibəyə" başlığı altında "Luçiano kimdir" mövzusunda ədəbi-bədii gecə keçirilmiş, klubun bədii-özfəaliyyət kollektivi üzvlərinin rəngarəng planda müharibə əleyhinə hazırladıqları geniş proqrama tamaşa edilmişdir.

Sabirabad Rayon Mədəniyyət və Turizm şöbəsi hər il olduğu kimi bu il də öz ənənəsinə sadiq qalaraq Novruz bayramı tədbirlərini çox gözəl, geniş planda hazırlamışdır. Bu bayramın möhtəşəm keçirilməsində Həşimxanlı kənd mədəniyyət evinin pəhləvanlar qrupunun və A.İsgəndərov adına xalq teatrı kollektivinin çıxışları daha maraqlı olmuş, Qaragünə kənd mədəniyyət evinin bədii-özfəaliyyət kollektivlərinin, Əhmədabad kənd mədəniyyət evinin türk folklor kollektivinin ifasında milli folklor nümunələri bayrama xüsusi təravət gətirmişdir.

Rayonun Şıxsalahlı, Qaratəpə, Bulaqlı, Qaragünə, Ulacanlı, Şəhriyar, Əliləmbəyli, Qəzli, Surra, Əsədli, Kovlar və digər kəndlərində olduğu kimi Güdəcühür kənd mədəniyyət evində də başqa tədbirlər tək Novruz şənlikləri yüksək səviyyədə təşkil olunmuşdur. Bu mədəniyyət evi bir qayda olaraq həyata keçirdiyi rəngarəng mədəni tədbirlərilə diqqət çəkir.

Heydər Əliyev adına rayon mədəniyyət evi nəzdində fəaliyyət göstərən A.İsgəndərov adına xalq teatrının kollektivi 2008-ci il aprel ayının 5-də Salyan şəhərində keçirilən xalq teatrının I Ümumrespublika baxış-müsabiqəsində S.S.Axundovun "Tamahkar" komediyası ilə çıxış edərək qalib gəlmiş, aprel ayının 22-dən 25-dək Bakı şəhərində keçirilən baxış müsabiqəsinin II turunda diplom və qiymətli hədiyyələrə layiq görülmüş, kollektivin üzvü Əliheydər Əliyevə isə ən yaxşı kişi ifasına görə diplom verilmişdir.





Aprel ayı müxtəlif tədbirlər planının genişliyi ilə uzun müddət sabirabadlıların yadından çıxmayacaq. Heydər Əliyev adına Mədəniyyət evinin qarşısında, fəvvarələr meydanında ulu öndərin 85 illik yubileyi münasibətilə keçirilmiş "Kitab bayramı"nda Heydər Əliyevə, vətənə, kitaba həsr olunmuş şeirlər söylənmiş, fikirlər bildirilmişdir. Tədbirin sonunda F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru F.Quliyeva çıxış edərək sabirabadlıları "Kitab bayramı" münasibətilə təbrik etmiş, gənc heydərçilərə "Göy qurşağı" jurnalını hədiyyə etmişdir.

Sabirabadlılar həmyerliləri "Nurlu Qələm" mükafatlarının laureatı Rüstəm Bağırovla görüş keçirmiş, onun ədəbi-bədii yaradıcılığı ilə yaxından tanış olmuşlar.

Artıq 17 ildir ki, dekabr ayının 31-i Dünya Azərbaycanlılarının Həmrəylik günü kimi qeyd olunur. Bu münasibətlə Sabirabad rayon mədəniyyət evinin konsert-təşviqat briqadası rayonun Şəhriyar, Qaratəpə, Axısxa, Cavad, Həsənalıkənd, Əhmədabad, Bulaqlı kəndlərində və məktəblərində olmuş, əhali arasında təbliğat işləri aparmış və onların qarşısında müxtəlif rəngarəng konsert proqramları ilə çıxışlar etmişlər.

Sabirabad Rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri Əhməd Ramazanov söhbətimiz əsnasında onu da bildirdi ki, rayonda M.Ə.Sabir adına Mərkəzi kitabxana, Uşaq kitabxanası, Gənclər kitabxanası, 2 şəhər kitabxanası və 75 kənd kitabxana filialları vasitəsilə rayon əhalisinə kitabxana xidməti göstərilir. MKS üzrə 2008-ci il ərzində 548549 nüsxə kitab fondu olmuş, 304288 nəfər oxucuya 499303 kitab verilməsi ilə xidmət göstərilmişdir. Prezident tərəfindən 20604 nüsxə kitab hədiyyə edilmişdir.

Rayonda MKS üzrə ədəbiyyatın təbliğ olunmasında əyani və şifahi təbliğat vasitələrindən geniş istifadə olunur. Bu münasibətlə müvəqqəti, birillik, daimi sərgilər, foto-stendlər və foto-sərgilər yaradılmış, "20 yanvar əsrin faciəsi", "Xocalı soyqırımı", "Qanun və Hüquq", "Dilimiz-mənəviyyatımız", "Xalqa bəxş edilən ömür", "Heydər Əliyev -85", "Heydər Əliyev Sabirabadda" və s. kimi daimi sərgilər, "Mir Cəlal-100", "M.Müşfiq-100", "N.Rəfibəyli-95", "Sabirabad yetirmələri" və s. başlıqlı müvəqqəti sərgilər təşkil edilmişdir.

Sabirabadda Heydər Əliyev muzeyi 2005-ci ildə təşkil edilmiş, 2008-ci ildə muzeydə geniş abadlıq, yenidənqurma və əsaslı təmir işləri başa çatdırılmış və 26 sentyabr 2008-ci ildə cənab Prezident İlham Əliyev muzeyin açılış mərasimində iştirak etmişdir.

Tarix-diyarşünaslıq muzeyinin 2008-ci ildə açılışı əhalinin böyük marağına səbəb olmuşdur. Respublikamız öz müstəqilliyini əldə etdiyi illər ərzində ictimai və mədəni həyatımızın bütün sahələrini, torpaqlarımızın bütövlüyünü və azadlıq uğrunda aparılan mübarizə tarixini əks etdirən materialların toplanmasına xüsusi diqqət yetirir. Muzeydə hərbi-vətənpərvərlik tərbiyəsi, milli-mənəvi dəyərlərimizin təbliği, gənclərdə mədəni irsə qayğı, torpağa, xalqa, vətənə məhəbbət hissinin aşılanması ilə bağlı "Ordun varsa, yurdun var", "Milli-mənəvi dəyərlərimiz qorunur", "Rayonumuzun yetirmələri", "Tarixin qan yaddaşı" və "18 may muzeylər günü" münasibətilə geniş həcmli tədbirlər həyata keçirilmişdir.

**Musiqi məktəblərində 347 nəfər şagird musiqi təhsili alır. 2008-2009-cu tədris ilində məktəbə 59 nəfər şagird qəbul edilmişdir. Məktəbdə tar, pianino, qarmon, kamança, nağara və səs şöbələri fəaliyyət göstərir. Bir sözlə, Sabirabadda bu gün sözün əsl mənasında həyat qaynayır. Xalqın həyat səviyyəsinin maddi-mənəvi durumunun yüksəlməsi hamımızı sevindirir.**

● A.QULİYEV